

**Azərbaycanın efir məkanının uğurları ilə yanaşı, üzləşdiyi problemləri təhlil edərkən istər-istəməz Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin "Azərbaycan" qəzetinin 2 oktyabr 2009-cu il tarixli sayında dərc olunmuş "Azərbaycanın efir məkanı: problemlər və vəzifələr" məqaləsində irəli sürdüyü müddəaları - bu istiqamətdə dönüş yaratmaq məqsədilə görüləcək işləri, həyata keçiriləcək tədbirləri dönə-dönə xatırlamalı oluruq.**

# Efir məkanımızın çatışmazlıqları

## Onların ləğvi üçün nə etməliyik?!

**Doğrudan da, məsələ son dərəcə ciddidir. Təbii ki, onun həlli müvafiq qurumların üzərinə böyük məsuliyyət qoyur. Bunu televiziya şirkətlərinin rəhbərləri anlamamış deyillər.**

Bununla belə deməliyik ki, ötən müddət ərzində müəyyən işlər görülsə də, hələlik cəmiyyəti narahat edən məsələlərin, radio və televiziyalarımızın fəaliyyətindəki çatışmazlıqların aradan qaldırılması ilə bağlı köklü islahatlar aparılmamışdır.

Odur ki, efir məkanımızda baş alıb gedən bu çatışmazlıqların ləğvi üçün həmin nöqsanları doğuran cəhətləri araşdırıb təhlil etməli, aparılacaq islahatların miqyasını müəyyənləşdirməliyik. Narahatlığa səbəb nədir?! Əlbəttə, bu suala bir-iki sözlə cavab vermək qeyri-mümkündür. Ona görə də yaranmış vəziyyəti bütün təfərrüatı ilə açıqlamaq gərəkdir. Müasir qloballaşma dövründə hər bir xalqın milli-mənəvi dəyərlərini, mədəniyyətini, əxlaqını, dünyagörüşünü qoruyub saxlaması son dərəcə vacib və aktualdır. Xoş örnək, nümunə kimi xüsusi vurğulamaq olar ki, Heydər Əliyev Fondu son altı ildə bu istiqamətdə çox mühüm layihələri uğurla həyata keçirir, milli mədəniyyətimizi, adət-ənənələrimizi, düşüncə tərzimizi mənfi təsirlərdən hifz etməyə çalışır.

Fondun təşəbbüsü ilə 2005, 2007, 2009 və 2010-cu illərdə kökü qədimlərə gedən muğam sənətinin təbliğinə xidmət edən musiqi müsabiqələrinin keçirilməsi, habelə milli folklorumuzun ayrılmaz hissəsi olan aşıq musiqisinin və Novruz bayramının YUNESKO-nun "qeyri-maddi irs" siyahısına salınması da deyilənləri bir daha təsdiqləyir.

Televiziyalarda özünü qabarıq göstərən əsas problemlərdən xüsusilə təəssüfdoğuranı bayağı, yeknəsək, yalnız çəkildiyi ölkənin milli mentali-

tetinə uyğun olan, Azərbaycan xalqının dünyagörüşü, əxlaqı, adət-ənənələri, dini inancları ilə bir araya sığmayan, açıq-saçıq səhnələrlə zəngin teleseriallarin nümayiş etdirilməsidir. Təəssüf ki, bəzən şou-biznesdən nisbətən uzaq olan, ciddi verilişləri ilə tanınan, cəmiyyətdə müəyyən rəğbət qazanan telekanallar da bu mərəzdən qurtula bilməyiblər. Səhər və axşam saatlarında efiri Cənubi Amerika xalqlarının mentalitetini nümayiş etdirən bu seriallarla doldurmaq həmin kanallara əsla başucalığı gətirmir.

Əminliklə demək olar ki, bu teleseriallarin heç biri Azərbaycan gəncinin mənəvi cəhətdən zənginləşməsinə, kamil şəxsiyyət kimi formalaşmasına xidmət etmir. Belə olduğu halda, yüngül dünyagörüşünü əks etdirən həmin filmləri xüsusi təbliğatla cəmiyyətə nümayiş etdirməyin nə mənası var? Problem əgər "efir setkası"nı doldurmaqdırsa, daha intellektual, elmi, tarixi sənədli filmlər nümayiş etdirmək, Azərbaycanın zəngin mədəniyyəti, adət-ənənələri, tarixi, ədəbiyyatı, elmi və s. haqqında maarifləndirici filmlər hazırlamaq doğrudanmı çətindir?

Ulu öndər Heydər Əliyevin Azərbaycan xalqının ən mühüm mənəvi dəyərlərindən hesab etdiyi islam dini, habelə, islam əxlaqı üçün təhqirlərlə dolu olan "Klon" serialının son dövrdə telekanallar tərəfindən dəfələrlə nümayiş etdirilməsi isə dözülməz haldır. Əhalisinin 95 faizinin İslam dininə sitayiş etdiyi və İslamın simvolik rənginin dövlət bayrağında yer aldığı bir ölkədə telekanalın bu seriala "rəğbət"ini anlamaq çətindir. Bu hal Azərbaycan dindarlarının haqlı qəzəbinə səbəb olur.

Ümumiyyətlə, son illərdə telekanallarda fundamental jurnalist araşdırması əsasında hazırlanan, aktual problemlərə həsr olunan filmlər və ya verilişlər son dərəcə azdır. Azərbaycan telekanallarının əksəriyyətində savadlı, yüksək intellektli, peşəkar kadrlar çalışdığı halda, bu sahədə yaranmış boşluğun səbəblərini izah etmək çətindir. Əlbəttə, bu bir həqiqətdir ki, bazar iqtisadiyyatı şəraitində belə ciddi verilişlərə sponsorluq etmək istəyən şirkətlər son dərəcə azlıq təşkil edir.

Lakin müasir televiziyanı bütün mahiyyəti ilə gəlir əldə etməyə meylli biznes strukturuna çevirmək də olmaz. Cəmiyyətin maariflənməsinə, intellektual-mənəvi yüksəlişinə xidmət edən proqramların, sənədli filmlərin daxili imkanlar hesabına maliyyələşdirilməsi daha məqsədəuyğun olar. Açıq demək lazımdır ki, Azərbaycanın son illər əldə etdiyi böyük iqtisadi uğurların, hüquqi dövlət, vətəndaş cəmiyyəti quruculuğu yolunda atılan addımların, qlobal enerji-kommunikasiya layihələrinin təbliğinə, ictimaiyyətə tam dolğunluğu ilə çatdırılmasına yönəlmiş verilişlərin, sənədli filmlərin hazırlanmasına da ciddi maraq duyulmur.

Müharibə şəraitində yaşayan, torpaqlarının 20 faizi işğal altında olan, təxminən 1 milyon vətəndaşı qaçqın və məcburi köçkün kimi yaşayan Azərbaycanda hərbi-vətənpərvərlik verilişlərinin də azlığı kifayət qədər narahatlıq doğuran məqamdır. Doğrudur, indi telekanalların əksəriyyətində hərbi xarakterli proqramlar var. Bununla belə, gənclərin hərbi-vətənpərvərlik ruhunda köklənməsinə, müxtəlif silahlar, döyüş sursatı, hərbi texnika haqqında dolğun təsəvvürünün, bilgilərinin formalaşmasına xidmət edən verilişlərin hazırlanması da ümumi işin xeyrinə olardı. Bundan başqa, telekanallarda uşaq verilişlərinin sayının çoxaldılması, dini maarifləndirmə işinin aparılmasına xidmət edən, habelə, yüksək peşəkarlıq tələb edən analitik-siyasi verilişlərin hazırlanması da günün aktual tələbləri kimi meydana çıxıb.

Televiziya və radiolarda Azərbaycan dilinin normalarının pozulması ilə bağlı nümunələrlə hər dəqiqə rastlaşmaq mümkündür. Açığı, bu gün efir məkanında özünü qabarıq göstərən ciddi problemlərdən biri də məhz budur. Bu gün televiziyalarda aparıcılıq edən gənclərin böyük əksəriyyəti ana dilini o qədər də səlis bilmir, tələffüz zamanı tez-tez kobud səhvlərə yol verir. Bəzi kanallarda xəbərlər proqramlarının aparıcı-diktorlarının intonasiyasının Azərbaycan dili üçün səciyyəvi olmadığını da dərhal sezmək olur. Sanki başqa bir xalqın nümayəndəsi Azərbaycan dilində danışır və tez-tez əcnəbi sözlərdən istifadə edir.

Televiziya verilişlərinin müğənni, aktrisa, aktyor və digər qeyri-peşəkar aparıcılarının da nitqlərində tez-tez jarqonlara, ara sözlərinə, əcnəbi sözlərə təsadüf olunur. Radiolarda bu baxımdan vəziyyət lap acınacaqlıdır. Özlərini diqqət mərkəzindən, ictimai qınaqdan kənarda qalmış kimi hiss edən radio aparıcıları, sözün həqiqi mənasında, hədlərini aşırlar. Onlar efirdə istədikləri kimi danışır, ikrah doğuran səslər çıxarır, zarafatlaşır, üstəlik efirə qoşulan dinləyiciləri ələ salmaqdan belə çəkinmirlər. Onların müzakirə üçün dinləyicilərə təklif etdiyi mövzuların böyük əksəriyyəti əxlaqi dəyərlərlə, milli mentalitetlə bir araya sığmır. Radionun canlı efirinə buraxılan təsadüfi insanların söylədikləri sərsəm fikirlər, küçə ifadələri insanı dəhşətə gətirir.

Telekanallarda yayımlanan xəbərlərin ümumi məzmununu əks etdirən titrlərdə də Azərbaycan dilinin normaları kobud surətdə pozulur. Bu titrlərdə sözlərin yazılışında kobud səhvlərə, qrammatik yanlışlıqlara yol verilir. Qaçan sətirlərlə canlı efirə verilən xəbərlərdə də bu cür səhvlərə tez-tez rast gəlmək mümkündür. Fikrimizcə, telekanalların xəbər verilişlərinə rəhbərlik edən peşəkar jurnalistlərin bu vəziyyəti aradan qaldırmaq üçün bir qədər diqqətli olması yetərlidir.

Son illər bəzi telekanalların milli mentalitetə və əxlaqa vurduğu ən böyük zərbələrdən biri də qaçan sətirlər vasitəsilə SMS-lərin yayımlanmasıdır. Bəri başdan bildirək ki, əsasən elan və reklam xarakteri daşıyan, gəlir əldə etməyə hesablanan bu SMS-lərin bir saatda 12 dəqiqədən artıq yayımlanması "Reklam haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə ziddir. Prezident Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyev bu məsələyə də xüsusi toxunaraq yazır: "Həmin SMS-lərin məzmunu ciddi tamaşaçını narahat etməyə bilməz. Müşahidələr göstərir ki, qaçan sətirlərdə günün istənilən saatında qeyri-etik, milli-mənəvi dəyərlərə zidd məzmuna malik informasiyalar verilir".

Günün istənilən vaxtında canlı olaraq yayımlanan, məzmunu ciddi yoxlanılmadan efirə buraxılan bu SMS elan və yazışmaların məzmunu tamaşaçını hiddətləndirməyə bilməz. Azərbaycan tamaşaçısı bu üzdəniraq elanlarda bir-birilə tanış olmaq üçün yer təyin edənlərdən tutmuş, müxtəlif ev əşyalarını, hətta böyrəyini satmaq istəyənlərə qədər müxtəlif adamlara rast gəlir.

Ciddi problemlərdən biri də telekanallarda nümayiş olunan reklamlarla bağlıdır. Əlbəttə, biz Azərbaycanda çəkilən bir çox reklamların mövzu, ideya baxımından bəsit, primitiv olmasının, tamaşaçıda əks reaksiya doğurmasının üzərində xüsusi dayanmaq istəmirik. Əsas problemlərdən biri də budur ki, həmin reklam çarxlarının əksəriyyətində ədəbi dilin normaları pozulur, leksikonumuza uyğun gəlməyən əcaib sözlər, ifadələr işlədilir. Məsələn, "Sprite" sərinləşdirici içkisinin reklamında - "susuzluğuna etibar et", "Jacobs - monarx" qəhvəsinin reklamında - "Zövqətir qüvvəsi", "Snickers" şokoladının reklamında - "dayanma snigerslə", "Bounty" şokoladının reklamında isə - "cənnət həzzi" kimi ifadələr buna əyani misal ola bilər.

Bunlar reklamla bağlı problemlərin heç də hamısı deyil. Telekanallar gəlir əldə etmək naminə bəzən "Reklam haqqında" Azərbaycan Respublikasının qanunlarına da məhəl qoymur, müxtəlif dərman preparatlarının reklamı ilə məşğul olurlar. Bu azmış kimi, qadağan olunmuş saatlarda tütün məmulatlarının, spirtli içkilərin də reklamına rast gəlinir. Belə hallarin qarşısının alınması üçün Milli Televiziya və Radio Şurası da öz imkanlarından istifadə etməlidir.

Bir çox dövlətlərdə - uzağa getməyək, kifayət qədər demokratik dövlət kimi tanınan Türkiyədə telekanalların qanunla müəyyən edilmiş yayım tələblərini pozması ciddi sanksiyalarla qarşılanır. Televiziya və radio yayımını tənzimləyən xüsusi dövlət qurumu bəzən hansısa televiziyanın, radionun müəyyən müddətə bağlanması ilə bağlı qərar qəbul edir. Fikrimcə, Azərbaycan Milli Televiziya və Radio Şurasına da qanunvericiliklə belə bir imkan yaradılmalıdır.

Təqdirəlayiq hal kimi vurğulamaq olar ki, Azərbaycanın əksər kanalları hazırda bütün respublika ərazisində yayımlanırlar. Lakin bununla belə Azərbaycanın sərhədyanı bölgələrində qonşu dövlətlərin telekanallarının efir məkanımıza ideoloji təcavüzü hallarına geniş rast gəlirik.

Xüsusən də Cənub və Qərb bölgələrində qonşu ölkələrin televiziyalarının milli efir məkanına qanunsuz yayımı və mənfi təsiri daha qabarıq duyulur. Doğrudur, bu texniki problemin həlli üçün Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi son illərdə bir sıra mühüm tədbirlər həyata keçirmişdir. Fikrimizcə, mühüm ideoloji-siyasi mahiyyət kəsb edən bu problemin tamamilə aradan qaldırılması üçün bütün mümkün vasitələrdən istifadə olunmalıdır.

Respublikamızın efir məkanında fəaliyyət göstərən teleradio kanallarına xatırlatmaq istərdik ki, "Televiziya ve radio yayımı" haqqında Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən "... milli-mənəvi dəyərlərin qorunması, peşə etikasına və əxlaq normalarına riayət edilməsi, proqramların keyfiyyətliliyi..." teleradio fəaliyyətinin əsas prinsiplərindəndir.

**Bütün bu qeydlərimizi ümumiləşdirərək deməliyik ki, maarifləndirmə xarakterli proqramlarda biznes maraqları üstünlük təşkil etməməli, daha çox maraqlı verilişlərlə tamaşaçı auditoriyasının rəğbətinin qazanılması qarşıya məqsəd qoyulmalıdır. Televiziya təkcə informasiya vermək və yaxud əyləndirməklə işini bitmiş hesab etməməlidir. O həmçinin tamaşaçını düşündürməyi, istiqamətləndirməyi də bacarmalıdır...**

● **Tural ƏFƏNDİYEV,**
***fəlsəfə doktoru***

**Ədəbiyyat**

1. R.Mehdiyev "Azərbaycanın efir məkanı: problemlər və vəzifələr". "Azərbaycan" qəzeti, 2 oktyabr 2009-cu il.
2. T.Əfəndiyev "Televiziya milli-mənəvi dəyərlərimizin daşıyıcısı və qoruyucusudur". "Mədəni-maarif işi" jurnalı, 2010 №7.
3. E.Əlibəyli "Televiziyanın mədəniyyət sistemində yeri". "Mədəni-maarif işi" jurnalı, 2006 №5.
4. R.İsmayılov "Azərbaycan efir məkanına ictimai nəzarət artmalıdır". "525-ci qəzet", 6 oktyabr 2009-cu il.